## PEDAQOGİKA VƏ METODİKA

*https://doi.org/10.30546/114578.2025.7.289*

# MÜASİR DÜNYADA İNFORMASİYANIN ROLU VƏ MAHİYYƏTİ

**Asif Axundov[1], Nigar Qəhrəmanova[2]**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent[1,2]*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://Orcid.org/0000-0001-6587-5236[2]*
*axundovasif100@gmail.com[1], ngahraman@mail.ru[2]*

**Xülasə**

Məqalədə məqsədi müasir dünyada insana və bütövlükdə cəmiyyətə ən güclü təsir vasitəsi kimi informasiyanı öyrənməkdən ibarətidir. O kəs ki hər hansı bir məsələ ilə bağlı ən çox məlumat əldə edib, o, həmişə başqalarından daha müvəffəq vəziyyətdədir. Ona görə də hər bir insan müxtəlif sahələrdə yeni biliklər əldə etməyə çalışmalıdır və bu bilikləri toplamaq, çoxaltmaq və ötürə bilmək üçün informasiya etibarlı şəkildə qorunmalı və saxlanılmalıdır.

İnformasiya texnologiyanın və ümumilikdə resursların inkişafını şərtləndirən əsas, həlledici amillərdən biridir. Bu baxımdan, informasiyalaşdırma prosesinin insanın idarəetmə və intellektual fəaliyyət sahəsinə təsir səviyyəsini və dərəcəsini müəyyən etmək çox vacibdir.

**Açar sözlər**: informasiya, informasiya cəmiyyəti, müasir dünya, bilik.

# THE ROLE AND IMPORTANCE OF INFORMATION IN THE MODERN WORLD

**Asif Akhundov, Nigar Gahramanova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The purpose of this article is to study information as one of the most powerful tools influencing individuals and society as a whole in today’s world. Whoever possesses the most information on a given issue is always in a more advantageous position than others. Therefore, every individual should strive to

acquire new knowledge in various fields. To collect, expand, and transmit this knowledge, information must be securely preserved and protected.

Information is one of the key and decisive factors driving the development of technology and resources in general. From this perspective, it is crucial to determine the level and extent of the impact that the informatization process has on human management and intellectual activity.

**Key words**: information, information society, modern world, knowledge.

## РОЛЬ И ЗНАЧЕНИЕ ИНФОРМАЦИИ В СОВРЕМЕННОМ МИРЕ

**Асиф Ахундов, Нигяр Гахраманова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Целью данной статьи является исследование информации как сильнейшего средства воздействия на человека и общество в целом в современном мире. Кто владеет наибольшим объемом информации по какому-либо вопросу, тот всегда находится в более выигрышном положении, по сравнению с остальными. Поэтому каждый человек должен стремиться к получению новых знаний в различных сферах. А чтобы было возможным накапливать, приумножать и передавать эти знания, информация должна быть надежно защищена и сохранена.

Информация является одним из главных решающих факторов, определяющих развитие технологий и ресурсов в целом. В связи с этим очень важно определить уровень и степень влияния процесса информатизации на сферу управления человеком и его интеллектуальной деятельности.

**Ключевые слова**: информация, информационное общество, современный мир, знания.

### Giriş/Introduction

Müasir dünyada enerji, xammal və kapitalla yanaşı informasiya əsas resursdur. Onun elmi əhəmiyyəti bir çox sahələri əhatə edir − fundamental tədqiqatlardan tutmuş cəmiyyətin, iqtisadiyyatın və mədəniyyətin inkişafına təsir göstərən tətbiqi texnologiyalara qədər. Müasir dünyanı informasiyasız təsəvvür etmək mümkün deyil. İnformasiya insan, maliyyə və maddi resurslarla yanaşı, ən mühüm strateji və idarəetmə vasitələrdən birinə çevrilmişdir. Onun istehsalı və istehlakı müxtəlif sahələrin effektiv fəaliyyət göstərməsinə, ictimai həyatın

inkişafına və ilk növbədə iqtisadiyyatın inkişafına zəruri zəmin yaradır. Bu o deməkdir ki, nəinki hər bir insan üçün Yer kürəsinin istənilən yerindəki məlumat mənbələri əlçatan olur, həm də onun yaratdığı yeni informasiya bütün bəşəriyyətin irsinə çevrilir. Müasir dövrdə informasiya almaq hüququ, ona əlçatanlıq cəmiyyətin bütün üzvləri üçün həyati əhəmiyyət kəsb edir. İnformasiyanın cəmiyyətdə artan rolu elmi anlamanın mövzusu olmuşdur. Onun yerini və əhəmiyyətini izah etmək üçün nəzəriyyələr irəli sürülmüşdür. Bunlardan "postindustrial cəmiyyət" və "informasiya cəmiyyəti" nəzəriyyələrinin adını çəkmək olar.

İnformasiya texnologiyanın və ümumilikdə resursların inkişafını müəyyən edən əsas həlledici amillərdən biridir. Bu baxımdan, informasiya sənayesi, kompyuterləşdirmə, informasiya texnologiyaları ilə informasiyalaşdırma prosesi təkcə inkişaf arasındakı əlaqəni anlamaq üçün vacib deyil, həm də informasiyalaşdırma prosesində insanın idarəetmə və intellektual fəaliyyəti sferasının təsir dərəcəsinin səviyyəsini müəyyən edir [Первин, 2001].

Ümumilikdə informasiya və informasiya prosesi kimi idarəetmə problemlərinə böyük diqqət ayrılır. Hansı ki, aşağıdakı obyektiv proseslər nəticəsində yaranır:

- bəşəriyyət informasiya partlayışı yaşayır. Cəmiyyətdə dövriyyədə olan və saxlanılan informasiyanın böyüməsi, insanın onu mənimsəmək üçün fərdi qabiliyyətləri ilə ziddiyyət təşkil edir;
- kütləvi kommunikasiya proseslərinin inkişafı;
- informasiyanın ümumi nəzəriyyəsinin işlənib hazırlanma ehtiyacı;
- kibernetikanın idarəetmə elmi kimi inkişafı;
- informasiya texnologiyalarının sosial həyatın sahələrinə nüfuz etməsi;
- təbiət elmləri sahəsində aparılan tədqiqatlar canlı və cansız təbiətin özünü təşkili prosesislərində informasiyanın rolunu təsdiq etməsi;
- davamlı inkişaf probleminin aktuallaşdırılması, əsas hərəkətverici qüvvəsi informasiya potensialı və informasiya resursları olan informasiya iqtisadiyyatının formalaşdırılması;
- bütövlükdə götürülsə, bəşəriyyətin inkişaf perspektivləri problemi müasir şəraitdə tərəqqi meyarı məsələsini qaldırmağı zəruri edir [Уханов, 1997].

**İnformasiya**

İnformasiya anlayışının cəmiyyətdə və onun təsisatlarında informasiya proseslərinin mexanizminin başa düşülməsində, bir tərəfdən, informasiyanın çeviricisi və paylayıcısı olan informasiya mühiti anlayışı mühüm yer tutur. Digər tərəfdən isə insanların fəaliyyəti üçün motivasiya mənbəyidir. İnsan öz fəaliyyəti

prosesində informasiya mühiti ilə fəal qarşılıqlı əlaqədə olur, ondan yeni biliklər alır və onu informasiya mühitində yerləşdirdiyi informasiya formasında təqdim edir. İstənilən təsərrüfat subyekti onun daxil olduğu müəyyən informasiya mühiti ilə xarakterizə olunur. Bu informasiya mühiti təsərrüfat subyektinin inkişaf səviyyəsini əks etdirir və insanların bir-biri ilə ünsiyyətdə informasiya davranışının bir çox prinsiplərini müəyyən edir.

Cəmiyyətin inkişafında informasiyanın rolu bu cəmiyyətdə, yeni biliklərin yaranması istehsal münasibətlərində, iqtisadiyyatda və məişətdə dəyişikliklərə səbəb olur. Müasir dünyada gündəlik məlumat axınında axtarış getdikcə çətinləşir, insanlar onun axtarışını, seçilməsini və mənimsənilməsini optimallaşdırmağa çalışırlar. Yalnız yüksək mədəni və təhsil səviyyəsi bütün məlumat mənbələrinə çıxış imkanı verir. Qapalı bir döngü yaranır: yeni bilik mədəni-maarif səviyyəsinin yüksəlməsinə gətirib çıxarır ki, bu da insana getdikcə daha çox yeni bilikləri mənimsəməyə imkan yaradır və cəmiyyətdə dəyişikliklər baş verir. Yeni biliklər meydana çıxır ki, bu mədəni-maarif səviyyəsini daha da artırır. Cəmiyyət mövcud olduğu müddətcə bu dövr sonsuz olacaq və onu təkrarlamaq üçün yalnız yeni biliklər lazım olacaqdır.

Yüksək informasiya mədəniyyəti müasir insanın ən aktual səriştəsidir. Tarixi inkişaf baxımından bu fakt informasiya əldə etmək və onun mənimsənilməsi imkanları üçün şərtdir. Yəni, kifayət qədər mədəni-maarif səviyyəsi olmadan insan yeni biliklər əldə edə və ya mənimsəyə bilməyəcək. Cəmiyyətin inkişafında informasiyanın əsas rol oynamasında İnternetin yaranması da təsir etdi: informasiya texnologiyaları hər kəs üçün əlçatan olan elektron kitablar, video mühazirələr, məlumat bazaları da daxil olmaqla informasiyanın təqdim edilməsinin yeni formatları və üsullarını yaratmağa və tətbiq etməyə imkan vermişdir.

"İnformasiya" anlayışının məzmun və dəyər aspektini də qeyd etmək lazımdır ki, bu da "bilik" və "informasiya" anlayışlarını yeni fundamental vahid – "informasiya resursu" – anlayışında birləşdirməyə imkan verdi və cəmiyyətin əsas strateji resursu halına gətirdi.

İnformasiya universal kateqoriya kimi müasir biliklərdə çox mühüm rol oynayır. Onun universallığı informasiyanın maddi və mənəvi aləmdəki bütün hadisələri özündə birləşdirməsi ilə bağlıdır. Bu baxımdan son illərdə bu kateqoriya humanitar elmlərin mərkəzi tədqiqat obyektinə çevrilmişdir.

İnformasiya kateqoriyasının xüsusi mənası tarixdə özünü göstərir ki, bu da mahiyyətcə informasiyanın yığılması və inkişafı prosesidir. Tarixi təcrübə göstərir ki, informasiya və onun yayılma kanalları olmadan ictimai inkişaf

mümkün deyil. İnformasiya tarixin dönüş nöqtələrində, təbiətdə, ictimai quruluşda, elmdə və s. keyfiyyət dəyişikləri baş verdiyi zaman aktuallaşır. Tarixin bütün dönüş nöqtələri informasiyanın toplanması və informasiya mübadiləsinin yeni yol və vasitələrinin yaranması ilə bağlıdır. Beləliklə, məhz informasiya – rəsmi və ya məişət, doğru və ya faktları bilərəkdən təhrif edən, iqtisadi, sənaye, ekoloji və s. – cəmiyyətin hərəkətlərinin və insan inkişafının əsas mənbəyi kimi çıxış edir.

Tarixi təcrübə göstərir ki, informasiya ictimai inkişafa mühüm təsir göstərir. Sosial həyatın artan mürəkkəbliyi informasiyanın həcminin genişlənməsi ilə müşayiət olunur ki, bu da öz növbəsində informasiya mübadiləsinə ehtiyacın artmasına səbəb olur. İnformasiyaya və informasiya mübadiləsinə ehtiyac nə qədər geniş olarsa, cəmiyyətdə bir o qədər çox informasiya yayılır. O, insanların şüuruna və davranışına həlledici təsir göstərir, onların həyat tərzini müəyyən edir, qərarlarının qəbul edilməsinin, dünyagörüşünün formalaşmasının, cəmiyyətdə kommunikativ münasibətlərin əsasını təşkil edir. İnformasiya ictimai inkişafı idarə edən amildir.

Cəmiyyətin inkişafında informasiyanın bu qədər mühüm rolunu nə diktə edir? Yəqin ki, ilk növbədə, insanın inteqrativ ehtiyaclarından biri informasiyaya olan tələbatdır və insan fəaliyyətinin bütün növlərinə daxil olan informasiya ehtiyacıdır. İnformasiya fəaliyyəti sosial infrastrukturun inkişafı mexanizminin əsasını təşkil edir və buna görə də subyektin istənilən fəaliyyətini qabaqlayır, müşayət edir və tamamlayır [Уханов, 1997:11].

İnformasiya 1940-cı illərin sonlarından, kibernetika müstəqil kateqoriya kimi informasiya haqqında danışmağa başlayandan sonra tədqiqat obyektinə çevrilmişdir. K.Şennonun ünsiyyət nəzəriyyəsinə həsr olunmuş əsərlərində informasiya nəzəriyyəsinin inkişafı üçün zəmin yaradılmış, lakin onun yalnız texniki və kəmiyyət parametrləri öyrənilmişdir. Şennonun yanaşmasının başlanğıc nöqtəsi qeyri-müəyyənliyin aradan qaldırılması kimi məlumat ideyasıdır. Şennon göstərdi ki, məlumat ölçülə bilən kəmiyyətdir: verilmiş mesajda olan məlumatın miqdarı, bütün mümkün mesajlar arasında onun seçiləcəyi ehtimalının funksiyasıdır. O, qeyri-müəyyənliyin azaldılması ölçüsü kimi informasiyanın miqdarını riyazi olaraq əsaslandırdı və müəyyən etdi [Зубов, 1996].

"İnformasiya" anlayışının sonrakı elmi dərk edilməsi N.Vinerin əsərləri ilə əlaqələndirilir. Burada informasiya artıq xüsusi deyil, ümumi elmi anlayış kimi nəzərdən keçirilir. İnformasiya nəzəriyyəsinin inkişafına sovet alimləri də mühüm

töhfə vermişlər – V.A.Kotelnikov, A.Y.Xinçin, A.N. Kolmoqorov, A.A.Xarkeviç və b.

1940-1950-ci illərdə sırf texniki elmlər üçün hazırlanmış informasiya nəzəriyyəsi əsas verir ki, artıq 1960-cı illərin sonu-1970-ci illərin əvvəllərində informasiyanı fəlsəfi kateqoriya kimi əsaslandırmağa cəhd edilir. Bu ilk növbədə, informasiyanın həcminin artması, onun strukturunun mürəkkəbləşməsi və cəmiyyətin inkişafındakı rolu ilə bağlıdır. Nəticədə, artıq 1970-ci illərdə informasiya nəzəriyyəsi ümumi elmi metodologiya kimi formalaşdı, lakin praktikada öz əksini tapmadı.

Eyni zamanda, bu gün humanitar elmlərin inkişaf məntiqi fənlərarası əlaqə, inteqrasiya və nəticə etibarilə təkcə ayrı-ayrı elmlərin vasitələrini deyil, həm elmi-tədqiqat vasitələrini birləşdirməyə imkan verən ümumi elmi metodologiyanın axtarışı istiqamətində irəliləyir, həm də humanitar və təbiət elmləri tədqiqatları üçün bəzi ümumi əsasları inkişaf etdirir.

İnformasiya haqqında təsəvvürlərin sintezinə cəhdlər, onun həyat fəaliyyətinin formalarının analizi, komunikasiya sistemində rolunu informasiologiya – XX-XXI əsrlərdə formalaşan informasiya, onun ötürülməsi, forma və kanalların yaranmasını və insanın və cəmiyyətin inkişafına təsirini müəyyən edən elm etmişdi [Юзвишин, 2001:197]. İnformasiya elminin predmeti informasiyanın fundamental kateqoriya olan çoxfunksiyalı idrak obyekti kimi öyrənilməsidir. İnformasiya elmi informasiyanı kainatı, bütün prosesləri və təbiət hadisələrini izah etmək üçün yeni universal vasitə kimi müəyyən edir.

Beləliklə, informasiya həqiqətən də cəmiyyətin inkişafında mühüm rol oynayır ki, bu da tarixi təcrübə ilə inandırıcı şəkildə təsdiqlənir. Qədim dövrlərdən bu günə kimi "insanın məkan və zamanı dərk etməsi, özünü varlığın məkan-zaman metrikasında dərk etməsi onun mexanizm və vasitələrində sırf informasiya prosesi olub və indi də qalmaqdadır" [Зубов, 1996:13].

**İnformasiya cəmiyyəti.** "İnformasiya cəmiyyəti" anlayışı cəmiyyətin sənayedən postindustrial inkişaf formasına keçidi zamanı informasiya və biliyin statusunun dəyişməsi ilə bağlıdır. İnformasiya - informasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyətinə, əsas sosial dəyərlərdən birinə, inkişaf resursuna, birləşdirici mühitə, sosial həyatın və insan varlığının əsasına çevrilir. Onun istehsalı və səmərəli istifadəsi ictimai inkişafın perspektivlərini insan mövcudluğunun səviyyələrini və formalarını müəyyən edir.

"İnformasiya cəmiyyəti" termini sənayeləşmiş ölkələrin həyatının bütün sahələrində informasiyanın yeni rolu, informasiyanın istehsalı, emalı və yayılmasının keyfiyyətcə yeni səviyyəsi ilə əlaqəli mövcud vəziyyətini təyin

etmək üçün istifadə olunur. Bir çox liderlər ölkələrinin gələcəyini informasiya cəmiyyəti ilə əlaqələndirirlər.

Sosial dəyişikliklərin yenidən nəzərdən keçirilməsi, cəmiyyət nəzəriyyəsində metodoloji paradiqmanın dəyişdirilməsinə yanaşmalar XX əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərində müşahidə olmağa başladı. İnformasiya cəmiyyəti nəzəriyyələri iki qrupa bölünür:

Birinci qrupa postindustrializm anlayışına yaxın olan və birbaşa onlardan irəli gələn nəzəriyyələr daxildir. D.Bell, A.Turen və başqalarının adları bu nəzəriyyələrlə bağlıdır. Onlar "informasiya cəmiyyəti" nəzəriyyəsinin inkişafının ilk mərhələsini təmsil edirlər.

İkinci qrup O.Tofflerin, R.Darendorfun, F.Ferrarotinin və D.Bellin (düzəldilmiş nəzəriyyəsinin) konseptual sxemlərini təmsil edir.

İnformasiya cəmiyyəti konsepsiyalarında qeyd olunur ki, belə bir cəmiyyət tarixi inkişafında xüsusi mərhələni təmsil edir. İnformasiya cəmiyyətinin tarixi yerini fərqli şərh edən iki yanaşma var. Y.Habermas və E.Giddensin ifadə etdiyi birinci yanaşmada informasiya cəmiyyəti sənaye cəmiyyətinin mərhələsi kimi nəzərdən keçirilir. D.Bell və O.Toffler tərəfindən səsləndirilən ikinci yanaşma informasiya cəmiyyətini sənaye cəmiyyətindən sonra tamamilə yeni mərhələ kimi müəyyənləşdirir (Tofflerə görə ikinci dalğa).

İnformasiya cəmiyyəti ənənəvi sənaye və xidmət sahələrinin üstünlük təşkil etdiyi cəmiyyətdən onunla fərqlənir ki, burada informasiya, bilik, informasiya xidmətləri və onların istehsalı ilə bağlı bütün sənayelər (telekommunikasiya, kompyuter, televiziya) daha sürətlə inkişaf edir və yeni inkişaf mənbəyi hesab olunur.

İnformasiya cəmiyyətinin əlamətləri bunlardır:

- cəmiyyətin həyatında informasiya, bilik və informasiya texnologiyalarının rolunun artırılması;
- informasiya texnologiyaları, rabitə və informasiya məhsulları və xidmətlərinin istehsalı sahəsində çalışanların sayının artması, onların ümumi daxili məhsulda xüsusi çəkisinin artması;
- telefon, radio, televiziya, internet, həmçinin ənənəvi və elektron kütləvi informasiya vasitələrindən istifadə etməklə cəmiyyətin informasiyalaşdırılmasının artırılması;
- aşağıdakıları təmin edən qlobal informasiya məkanının yaradılması: a) insanlar arasında səmərəli informasiya qarşılıqlı əlaqəsini, b) onların qlobal informasiya resurslarına çıxışını və c) onların informasiya məhsulları və xidmətlərinə olan ehtiyaclarının ödənilməsini;

• elektron demokratiyanın, informasiya iqtisadiyyatının, elektron dövlətin, elektron hökumətin, rəqəmsal bazarların, elektron sosial və iqtisadi şəbəkələrin inkişafı [Нестеров, 2021].

İnsan üçün informasiya onun müxtəlif mənbələrdən aldığı bilikdir. Hər bir fərd aldığı istənilən məlumatı bir vaxtlar valideynlərindən, müəllimlərindən, kitablardan, şəxsi praktik təcrübəsindən öyrənib yaddaşında saxlayır. Öz növbəsində kitablarda, jurnallarda, qəzetlərdə yazılan hər şey bu mətnlərin müəlliflərinin biliklərini əks etdirir və ona görə də bu informasiya sayılır [Абдеев, 1994]. Müxtəlif simvolik vasitələr və mədəniyyət vasitəsilə toplanan informasiya əlaqələri məsələsi son dərəcə maraqlı bir sualdır. Nəzəri cəhətdən ən çox işlənmiş mədəniyyət konsepsiyası "mədəniyyətin informasiya-semiotik konsepsiyası" anlayışıdır [Губанов, 2016:13-20]. Bu yanaşma çərçivəsində mədəniyyət bəşəriyyət tərəfindən müxtəlif işarə sistemlərinin köməyi ilə toplanmış və sonrakı nəsillərə ötürülən sosial məlumat kimi qəbul olunur. Fərdi və qrup mədəniyyətinin əsasını mentalitet təşkil edir [Губанов, 2016].

**Nəticə/Conclusion**

Beləliklə, informasiya cəmiyyəti işçilərin əksəriyyətinin informasiyanın, xüsusən də onun ən yüksək formasının − biliyin istehsalı, saxlanması, emalı və satışı ilə məşğul olduğu cəmiyyətdir. Alimlər hesab edirlər ki, informasiya cəmiyyətində kompyuterləşmə prosesi insanlara etibarlı informasiya mənbələrinə çıxış imkanı verəcək, onları adi işlərdən azad edəcək, sənaye və sosial sahələrdə informasiya emalının yüksək səviyyədə avtomatlaşdırılmasını təmin edəcək. Cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi maddi deyil, informasiya xarakterli məhsulların istehsalı olmalıdır. Maddi məhsul daha çox informasiya tutumlu olacaq ki, bu da onun dəyərində innovasiya, dizayn və marketinqin payının artması deməkdir.

İnformasiya cəmiyyətində təkcə istehsal deyil, həm də bütün həyat tərzi, dəyərlər sistemi, mədəni asudə vaxtın maddi dəyərlərə münasibətdə əhəmiyyəti artacaq. Hər şeyin əmtəə istehsalına və istehlakına yönəldiyi sənaye cəmiyyəti ilə müqayisədə informasiya cəmiyyətində intellekt və bilik istehsal və istehlak olunur ki, bu da əqli əməyin payının artmasına səbəb olur. İnsana yaradıcılıq qabiliyyəti lazım olacaq, biliyə tələbat artacaq.

Müasir dünyada informasiya tərəqqinin mühərriki, innovasiyaların əsası və cəmiyyətin inkişafının əsas amilidir. Bununla belə, informasiya axınlarının səriştəli idarə edilməsi, məlumatların qorunması və yeni texnologiyaların etik tənzimlənməsi mühüm problemlər olaraq qalır. İnformasiya insana və bütövlükdə cəmiyyətə təsir etmək üçün ən güclü vasitədir. Hər hansı bir məsələ ilə bağlı ən

çox məlumat sahibi olan şəxs həmişə digərləri ilə müqayisədə daha üstün mövqedədir. Ona görə də hər bir insan müxtəlif sahələrdə yeni biliklər əldə etməyə çalışmalıdır. Bu bilikləri isə toplamaq, artırmaq və ötürmək üçün informasiya etibarlı şəkildə qorunmalı və saxlanılmalıdır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Абдеев, Р.Ф. (1994). Философия информационной цивилизации. – Москва, − 366 с.
2. Губанов, Н.Н., Губанов Н.И. (2016). Функционирование менталитета в обществе: социокультурная гипотеза // Научные исследования и разработки. Социально-гуманитарные исследования и технологии. Т. 5. №4. – Москва, с.20-24.
3. Губанов, Н.Н., Губанов Н.И. (2016). Путь к категории менталитета в истории социального познания //Гуманитарный вестник. № 8(46). – Москва, с.3-14.
4. Зубов, Ю.С., Сляднева Н.А. (1996). Человек в пространстве и времени: информационный аспект проблемы / Информационная культура личности: прошлое, настоящее, будущее: Междунар. науч. конф. Краснодар-Новороссийск, 11-14 сент. Тез. докл. − Краснодар: КГАК. − с.12-17.
5. Первин, Ю.А. и др. (2001). Роботландия: Книга для школы. − Москва: Научный центр программных средств обучения при МГК по народному образованию. − 160 с.
6. Смолян, Г.Л. и др. (2007). Информационно-психологическая безопасность (определение и анализ предметной области). − Москва: Институт системного анализа РАН. − 256 с.
7. Столяров, Ю.Н. (2000). Сущность информации. – Москва: − 107 с.
8. Уханов, В.А. (1997). Информационная деятельность человека: социально-философский анализ / дис. д-ра филос. наук / Уханов В.А. – Екатеринбург, – 292 с.
9. Юзвишин, И. (2001). Основы информациологии. – Москва: − 585 с.
10. Энциклопедия информациологии (2000). Под ред. А.М.Прохорова. − Москва: Информациология. – 466 с.
11. Шеннон, К. (1963). Работы по теории информации и кибернетике. − Москва: Изд. иностр. лит. − 830 с.
12. Нестеров, А.К. (2021). Роль информации в современном обществе // Энциклопедия Нестеровых. https://odiplom.ru/lab/rol_informacii.html

**Məqalə tarixçəsi**
*Daxil olub* 08.04.2025
*Qəbul edilib* 29.04.2025
*Nəşrə tövsiyə edib* *Tamilla Vahabova*
*pedaqogika elmləri doktoru, dosent*